MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

**UOT 792**
**ORCID: 0000-0001-7296-8334**
**https://doi.org/10.52094/TYEJ4534**

**Elçin Qafarlı Hacıağa oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Doktorant**
**elchingfarli@gmail.com**

# MÜASİR TÜRKİYƏ TEATRININ ESTETİK PROBLEMLƏRİ

**Xülasə:** Ötən əsrin 70-90-cı illərində Türkiyə teatrının həyatında müşahidə olunan problemlər mövzumuzu əhatə edir. Bu dövrdə Türkiyədəki repertuar, aktyorluq, dramaturgiya, teatr sənəti, rejissorluqla bağlı problemlər araşdırmamızda öz əksini tapıb. Maraqlıdır ki, oxşar problemlər həm dövlət, həm də özəl teatrları əhatə edir. Ciddi sosial problemlərdən bəhs edən səhnə əsərləri əvəzinə mahnı və rəqslərlə bəzədilmiş ucuz komediyalara daha çox yer verildi. Türkiyənin ictimai-mədəni həyatında teatr sənətinin inkişafı problemləri, cəmiyyətin səhnə sənətinə olan estetik tələbatının ödənilməsi, ideya-bədii baxımdan ciddi dramaturgiyanın yaradılmasında ləngimələr bu sahənin inkişafına təsir göstərmişdir.
**Açar sözlər:** Türkiyə, teatr, dramaturgiya, aktyor, estetika, problem, tamaşaçı, Ertuğtul, Şekspir, İstanbul.

Ötən əsrin yetmişinci illəri bütün Türkiyədə, əvvəlki illərin yaratdığı iqtisadi, sosial və siyasi böhranın cəmiyyətin hər sahəsinə fərqli formalarda təsir etdiyi illərdir. Türkiyənin istər siyasi-iqtisadi, istərsə ictimai-mədəni həyatında müşahidə edilən keyfiyyət dəyişmələrinin təsirilə mədəniyyət və incəsənət sahəsində də baxışların konkretləşməsi, istiqamətlərin müəyyənləşməsi baş verirdi. Bu zaman təbii olaraq teatr sənəti də müəyyən dəyişikliyə məruz qaldı. Belə ki, ideoloji və estetik baxışlara söykənərək istər ictimai mühitdə, istərsə də elmi-nəzəri fikirdə "ictimai teatr", "siyasi teatr", "inqilabçı teatr", "epik teatr" anlayışları geniş müzakirələrə səbəb olaraq teatrların fəaliyyət istiqamətlərini şərtləndirdi.

Bu dövrdə başqa bir tendensiya da diqqət çəkir ki, ölkədə yaranan özəl teatrlar tədricən parçalandıqları səbəbindən mütəşəkkil yaradıcı heyət, böyük

ideya-bədii məqsədləri həyata keçirməyə qadir olan truppa yarada bilmir, öz fəaliyyətlərini məhdud miqyasda davam etdirməli olurdular. Bu parçalanmanın bir səbəbi də ayrı-ayrı gənc sənətçilərin daha “düzgün” istiqamətli teatr quracaqlarına eyforik cəhdləri ilə bağlı idi. Belə ki, aktyorluğun bir sənət olaraq professionallıq səviyyəsinə yüksələ bilmədiyi Türkiyədə, bu münasibət onsuz da zəif olan aktyor qüvvələrini daha da zəiflədir və odur ki, onlar özfəaliyyət dərnəkləri səviyyəsində tamaşalar hazırlayırdılar.

Keçən əsrin yetmişinci-səksəninci illərində Türkiyədə yaşanan siyasi və iqtisadi böhran ölkənin teatr həyatına ciddi təsir göstərmişdi. Görkəmli teatr xadimi Muhsin Ertuğrul 1978-ci ildə 27 mart Beynəlxalq teatr günündəki bəyanatında bildirirdi ki, “Dramaturq, aktyor və tamaşaçı. Bunlar bir birindən ayrılarsa ortada teatr qalmaz. Ona görə mən deyirəm ki, günün ən önəmli problemlərini qələmə alan yazıçı da, onları səhnədə dilə gətirən sənətçi də sizin aranızdan çıxmışdır. Onun üçün biz bir bütünük. Tək tək düşüncələrimiz fərqli ola bilər, amma dərdlərimiz birdir. Teatr səhnədə problemləri yalnız sərgiləməklə kifayətlənir. Bu problemləri düşünərək həll etmək tamaşaçının sağlam düşüncəsinə buraxılmışdır. Səhnənin əsas qayəsi tamaşaçıları sağlam düşüncəyə yönəltməkdir” [1, s. 145].

Həmin illər təkcə M.Ertuğrulun deyil, bir çox başqa teatr sənətçisinin də cəmiyyət problemlərinə həssas olduğu, bu həssaslığı səhnələrdə dilə və görüntüyə gətirdiyi bir dövr olmuşdur.

Subsidiya edilən (ödənişli) teatrlar səhnələrinin saylarını artıraraq əcnəbi müəlliflərin və yerli yazıçıların pyeslərinə quruluş verir, ölkə daxili və xarici qastrollar təşkil edərək milli səhnə sənətinin inkişafına çalışırdılar. Həmin dövrdə gənclər öz baxışlarına uyğun olan tamaşaların göstərildiyi özəl teatrlara üz tutur, seyrçi fəallıqları aktyor ifasına emosional reaksiyaları ilə fərqlənirdilər.

Yetmişinci illər yalnız teatr həyatının deyil, teatr düşüncəsinin də canlılıq qazandığı, Vsevolod Meyerhold, Bertold Brext, Ervin Piskator, Tennessi Uilyams, Piter Bruk kimi müasir teatr xadimlərinin və dramaturqların baxışlarının Türkiyədə təbliği, nəzəriyyələrinin müzakirə edildiyi dövr olmuşdur.

Türkiyə Dövlət Teatrları müdiri olan Ergin Orbey 1978-79-ci illər teatr mövsümünü açarkən “daha doğru, müasir, daha təsirli, ölkə daxilində daha balanslı, daha geniş, daha təsirli bir teatr” [1, s.153] yaratmaq çağırışı etmişdi.

Qeyd etdiyimiz dövrdə İstanbulun da canlı teatr həyatı mövcud idi. Teatrın insanı maarifləndirici, mədəniləşdirici gücünə inanan Muhsin Ertuğrul, həm bu sənətin yayılmasına, həm də sənət səviyyəsinin yüksəldilməsinə çalışırdı. O dövrün sənətçilərindən ibarət gənc kadrlarla bu səhnələrdə xarici pyeslər, xüsusilə Şekspir pyesləri ilə yanaşı Türk teatrının inkişaf etməsinə önəmli təsir göstərmiş, müəyyən mənada zəif tamaşaların da tamaşaçı qarşısına çıxmasına imkan yaradılmışdır.

Muhsin Ertuğrul, qeyd etdiyimiz tamaşalarla bağlı "təcrübəsiz bərbərə tıraş olmağa gəlmədik" sözləri ilə tənqidlərə sinə gərdiyini söyləyərək Hüseyin Rahmi Gürpınarı, Yakup Kadri Karaosmanoğlunu pyes yazmağa necə təşviq etdiyini, Necip Fazıl Kısakürekin, Nazim Hikmətin dramaturgiyada necə irəlilədiklərini izah etməklə pyesləri səhnəyə qoyulan yazıçıya hörmət göstərilməsinin vacibliyini hər dəfə dilə gətirirdi [2, s. 46-47].

Səksəninci və doxsanıncı illərdə Türkiyədəki teatr fəaliyyətinin səngiməsini, səhnə sənətinin keyfiyyət baxımından itkilərə məruz qalması müşahidə edilməyə başladı.

Basqıların yaratdığı ciddi problemlərlə qarşılaşmamaq səyləri, tədricən teatrı güzəştlərə sövq etdiyindən cılız mövzular, illüstrativ oyun tərzi ilə seçilən əyləncə xarakterli tamaşaların sayı durmadan artırdı. Belə ki, ciddi sosial problemlərə toxunan səhnə əsərləri yerinə nəğmələr və rəqslərlə bəzədilmiş ucuz komediyalara daha çox yer verildi. Ucuzlaşma, təkcə kassa qayğısı olan özəl teatrlara deyil, həmçinin Dövlət Teatrları kimi, İstanbul Şəhər Teatrları kimi ödənişli teatr qurumlarına da öz təsirini göstərdi. Teatr həyatdan və real problemlərdən uzaqlaşdıqca, öz inzibati problemlərində boğulma təhlükəsi ilə üz-üzə qaldı. Teatral tamaşaçılar da əsasən televiziya yayınlarının təsiri altında olduqları üçün bu vəziyyətə əhəmiyyət vermədilər. Bütün bu problemlərə baxmayaraq, ciddi və keyfiyyətli səhnə işləri göstərməyə çalışan özəl teatrlar xərci az olan, mono tamaşalara üstünlük verməyə məcbur oldular.

Həmin dövrdə Türkiyə teatr həyatında nəzərə çarpan başqa bir müsbət addım isə Dövlət teatrlarının ölkə içində yayılması prosesi oldu. Belə ki, İzmir, Bursa və İstanbuldan sonra, Adana, Trabzon, Diyarbakır, Antalya, Sivas, Ərzurum, Konya və Van şəhərlərində Dövlət teatrlarının açılması, Türkiyənin teatr sənətinin inkişafına və onun gələcəyinə ümid bəsləməyə əsas verirdi.

Digər tərəfdən, həmin dövrdə Türkiyə Dövlət Teatrlarında hazırlanan bir çox xarici pyeslər arasında dünya teatrının şah əsərlərinə daha az rast gəlindiyi

müşahidə edilir. Muhsin Ertuğrulun hər il ən az bir Şekspir əsərinin tamaşaya qoyulması ənənəsi unudulurdu. Həmin dövrdə bütün Dövlət Teatrlarında Aristofanın "Lisistrata", Evripidin "Troyalı qadınlar", Esxilin "Oresteya", Şekspirin "Kral Lir", "Maqbet", Kristofer Marlounun "Dr. Faust", Molyerin "Tartyuf", Bertold Brextin "Artur Uinin mənsəbi hansı ki, olmaya bilərdi", "Üç quruşluq opera", "Qafqaz təbaşir dairəsi", "Qalileyin həyatı" kimi pyeslərin səhnə təcəssümü, Dövlət teatrlarının müasir teatr konsepsiyasına yanaşma meylini sübut edirdi.

Uzun illər ərzində Dövlət teatrlarında yerli yazarların əsərlərinə yer verilməməsi, Qərb teatrının klassik əsərlərinin və müasir pyeslərin səhnəyə qoyulması təcrübəsi zərərsiz ötüşməmişdir. Maraqlıdır ki, həmin dövrdə səhnələrin sayının artması, teatr sənətinin az təbliğ edildiyi bölgələrdə yeni səhnələrin açılması fəaliyyətdə olan teatrların pyes seçimində bir qədər həssas olmağa sövq etdiyi tamaşaçıların çoxunun asan başa düşəcəyi oyunlara başlıca yer verilməsini zəruriləşdirdi. Bununla belə bəhs etdiyimiz dövrdə Dövlət Teatrları səhnələrində hər il yüzə yaxın əsərin səhnə təcəssümü zamanı bəzi tamaşaların uğurlu olmasına baxmayaraq, bütövlükdə əvvəlki illərdəki uğur xəttini davam etdirə bilməmiş, istər repertuar seçimində, istərsə də bədii təqdimat işində yerində saymalardan daha sonralar isə açıq aşkar geriləmələrdən yaxa qurtarmaq mümkün olmamışdır.

Dövlət teatrlarının yaranmasını və fəaliyyətini tənzimləməsini nəzərdə tutan Qanunun qəbul edilməsinə baxmayaraq, Dövlət teatrlarının idarəçiliyi ilə bağlı həll edilməmiş bəzi problemlər onun mərkəz və əyalətlərdəki bölmələrinin təşkilatlanması işini ləngidirdi. Bundan başqa, bütövlükdə ölkədəki teatrların, o cümlədən Dövlət teatrlarının maddi-texniki vəziyyəti qənaətbəxş deyildi, səs və işıq sistemləri açıq-aşkar köhnəldiyindən istifadəyə yararsız vəziyyətdə idi. Onu da əlavə edək ki, ali dövlət təhsil müəssisələrində ayrıca teatr fakultələrinin yoxluğu, konservatoriyaların tədris planlarının müasir səhnə sənəti tələbləri səviyyəsində qurulmaması da mühüm problem olaraq öz həllini gözləyirdi.

Dövlət Teatrlarının tabeliyində olduqları nazirliyin statusunun tez tez dəyişməsi, baş direktorların da bu dəyişmələrə görə təyin edilməsi ardıcıl bir sənət siyasətinin yürüdülməsinin və uzun müddətli ciddi təşəbbüslərin qarşısını alırdı.

Sadaladığımız mövcud problemlərin həll olunmasında hüquqi-inzibati tədbirlərlə bərabər, teatrda çalışanların öz sənətlərinə möhkəm bağlılığı, məslək

şərəfi məsələsi də böyük önəm daşıyırdı. Mövcud teatrların əksəriyyəti repertuar tərtibində bir qayda olaraq hər hansı ideya-estetik prinsipə əsaslanmırdı.

Qəribədir ki, teatr ərsəyə gətirdiyi tamaşanın son nəticə olaraq kimə təqdim edəcəyinin fərqinə varmırdı. Halbuki, görkəmli teatr xadimi Muhsin Ertuğrul yeri gəldikcə hər dəfə həmkarlarına xatırladırdı ki, "tamaşaçı, ona təqdim edilən hər şeyi həzm edər kimi görünür. Amma həqiqi dəyərinin müzakirə etməsini də bilir. O aldanmaz. Onu yayındırmaq istəyənlər özləri aldanır. İndi meymunların belə gözləri açıldı" [3, s. 189].

Ədalət xatirinə onu da qeyd etmək lazımdır ki, o dövrdə teatrdaxili islahat adı ilə Dövlət teatrlarının rəhbərliyinin tez tez dəyişdirilməsinə baxmayaraq ara sıra mövzu aktuallığı, eləcə də ifa tərzi baxımından seçilən yeni və maraqlı tamaşalar yaranırdı. Bu qəbuldan olan "Teneke", "Qırmızı küçənin Süzanı", "Oyunlarla yaşayanlar", "Sığıntılar", "Köhnə fotolar", "Beşinci Frank", "Məhkəmə", "Kral ölür" kimi quruluşlar tamaşaçı rəğbəti qazanmış və repertuarda möhkəm yer tutmuşdu.

Türkiyənin ictimai-mədəni həyatında teatr sənətinin təşəkkül tapıb formalaşması, cəmiyyətin səhnə sənətinə estetik ehtiyacının ödənilməsi, ideya-bədii baxımdan ciddi dramaturgiyanın yaranmasının ləngiməsi problemləri bu sahənin inkişafına öz təsirini göstərirdi.

"Kəmiyyət inkişafının yetərincə keyfıyyətli olmasını çətinləşdirən problemlər arasında Türkiyədə teatr rejissorları yetişdirən çox az təhsil müəssisəsi olması və teatr təhsili verən qurumların çoxalmasıyla ixtisaslı müəllimlərin çatışmazlığı nəzərə çarpmakdadır. Yeni rejissorların yetişməməsi səhnələşdirilən əsərlərin keyfiyyətinə təsir göstərməkdə, yeni açılan şöbələrin əksəriyyətində isə təhsil sisteminə yeni qədəm qoymuş və kifayət qədər təcrübəsi olmayan gənclər və ya başqa qurumlardan gəlib arada bir seminarlar səviyyəsində töhvə verən sənətçilər tərəfindən tədrisin aparılmasına çalışıldığı görülməkdədir. Dərslərin əksəriyyəti isə bu sahədə təhsil almamış müəllimlər tərəfindən verilməkdədir" [4, s. 44-45].

Əlamətdar fakt olaraq qeyd edək ki, XX əsrin sonlarında Türkiyənin teatr həyatında özlərini yenilikçi kimi təqdim edən teatr truppaları yarandı. Səhnəni bir məhkəmə kürsüsü şəklində görən həmin truppaların tamaşalarında başlıca olaraq siyasi mövzulara üstünlük verilirdi. Şekspir, Şiller, Çexov kimi klassiklərin, Pinter, Dürrenmatt, Bekket, İonesko kimi məşhur dramaturqların

pyesləri ilə yanaşı yerli yazıçıların əsərləri teatrların repertuarından əksik olmurdu. Məhz bu illərdə türk yazıçısı Vasif Öngörenin “Asiya necə xilas olur” pyesi əsasında hazırlanan və böyük uğurla göstərilən tamaşası dediklərimizə bariz sübut ola bilər.

Bu dövrün ən mühüm, Türkiyə teatr sənətinin gələcəyi üçün xüsusi əhəmiyyət kəsb edən ictimai-mədəni hadisəsini yeni nəslin estetik tərbiyəsi məsələsinə xüsusi diqqətin ayrılmasını hesab etmək olar.

Nəhayət cəmiyyətdə belə bir fikir formalaşmağa başladı ki, teatr öz tamaşaçısını uşaqlıq çağından yetişdirməyə başlamalıdır. Bugünün uşağı, sabahın gənci, gələcəyin potensial tamaşaçısıdır. Gizli deyil ki, əgər bugün İstanbul teatrlarına tamaşaçı axını varsa, bunun səbəbi dünənki uşaq teatrında və şagird-tələbə tamaşalarında axtarılmalıdır. Bu baxımdan dövrün teatr sənətinin ən önəmli problemi Muhsin Ertuğrulun təbirincə desək “Uşaq teatrı” problemi idi.

Bu dövrdə Türkiyə teatrı müxtəlif dərəcəli iqtisadi və yaradıcılıq sınaqlarına məruz qaldı. Belə ki, sosial və iqtisadi çətinliklər üzündən ölkənin ən böyük şəhəri olan İstanbulda bir çox özəl teatrlar bağlandı. Bütün çətinliklərə, xüsusilə az qala teatrın yaradıcılıq rəqibi olan televiziyanın təqdim etdiyi asan və pulsuz əyləncələrə baxmayaraq xalq daha çox teatra tərəf üz tuturdu. Aydın məsələdir ki, bu zaman uzun illər ərzində Türkiyə cəmiyyətinin formalaşdırdığı estetik zövq səviyyəsi özünü biruzə verirdi. Özəl teatrların fəaliyyətində yenilik cəhdləri hiss edilsə də, təəssüf ki, onların fərdi yaradıcılıq qabiliyyətləri, bədii ifadə imkanları, ən əsası seçdikləri pyeslər müasirlik məzmunundan uzaq idi. Özəl teatrlar sürətlə azalsa da boşluqlar tez bir zamanda doldurulurdu. Bu da var ki, teatrların repertuarında aktuallıq və bədiilik baxımından keyfiyyətsiz tamaşalarla yanaşı, kifayət qədər ideya-estetik səviyyəli tamaşalar da yer tuturdu.

O zaman “Dostlar” teatrında Parisdən gələn Mehmet Ulusoyun quruluşunda təcəssüm etdirilən Brextin “Qafqaz təbaşir dairəsi” pyesi İstanbul tamaşaçısının böyük marağına səbəb oldu. Çünki istər quruluş mədəniyyəti, istərsə də estetik səhnə təqdimatı baxımından modern səhnə işi olan həmin tamaşa Türkiyənin teatr həyatını doldurmuş bəsit məzmunlu, zəif bədii-ifadə tərzi ilə seçilən ənənəvi tamaşalardan ciddi şəkildə fərqlənirdi. Məsələn, İstanbul Bələdiyyəsinin Şəhər Teatrında bir mövsüm ərzində göstərilən “Atmasyonya bərbəri”, “Beş para etməz oyun”, “Qodot gəldi”, “Salozun

mavali", "Gəncliyin tatlı səsi", "Balaban Ağa", "Erkək Satı", "Sakarca" kimi tamaşalara "qonaq edilən" tamaşaçılar əsl yaradıcılıq nümunəsini, sənət səviyyəsini dəyərləndirə bilərdilər.

Bütün bunlara baxmayaraq, istər dövlət, istərsə də bələdiyyə teatrlarının fəaliyyətində, özəlliklə təşkilati və yaradıcılıq sahələrində ciddi nöqsanlar, irili-xırdalı problemlər hələ də qalmaqda idi. Teatr sənətinin ən adi yaradıcılıq prinsipləri ifaçılıq, bədiilik, teatrallıq şərtləri, ən sadə peşə vərdişləri öyrənilmir, primitiv ifadə üsullarına geniş meydan verilirdi. Ən qəribəsi budur ki, teatr təcrübəsində, o cümlədən aktyor yaradıcılığında məktəb anlayışı ümumiyyətlə yox idi, əvəzində bir-birinə bənzəməyə çalışmaq, açıq aşkar təqlidçilik daha geniş yayılırdı. Odur ki, nəticədə teatral düşüncə əvəzinə bəsit ifa üslubu, Türkiyə səhnə sənətinə oyun təkrarlığı, yaradıcılıq yeknəsəkliyi gətirirdi. Burada çoxsaylı səbəblər göstərmək olar, amma onların arasında əsasən tamaşaların yanlış seçilən səhnələrdə göstərilməsi, təhsilli aktyorların, klassik konservatoriya təlimindəki, mimik, poza və fiziki səhnə hərəkətlərinə həddindən artıq diqqət verməri, "ənənəvi" oyun prinsipindən imtina etməmələri, bir zamanlar qəbul edilmiş oyun ştamplarından qurtula bilməmələri səhnə fəaliyyətində əsl buxova çevrilmişdi. Teatr tənqidçisi Ayşegül Yüksəlin həmin illərin səhnə sənətinin vəziyyəti ilə bağlı söylədiyi kimi, "ölkə səviyyəsində yayılması yavaş bir dövrdən asılı olan, tamaşaçı tərəfindən yönləndirilməyən və tamaşaçıların önündə getməyi bacara bilməyən teatr sənəti, mövcud qurumları ilə təcrübə edə edə səhv buraxa buraxa irəliləməyə çalışmaqdadır". [4, s.43]

Asanlıqla bəyənən, bəsit olanı alqışlayan tamaşaçıların ümumi kütləsi artdıqca təbii olaraq teatrların yaradıcılıq səviyyələrinin aşağı enməsi müşahidə edilirdi. Estetik meyarlar elə həddə çatmışdı ki, yerli tamaşaların çoxusu televiziya verilişlərindəki parodiyalardan, əyləncəli seriallardan, lətifə səviyyəsindəki mətnlərdən, ya da qupquru tarix dərslərindən fərqlənmirdi.

Tamamilə aydın idi ki, bu tamaşalarla müasir Türkiyə teatr sənətinin uğurlu perspektivinə şübhələr artırdı. Mövcud vəziyyəti məqbul hesab edənlər teatr sənətini biznes, yaxud xidmət sahəsi kimi dəyərləndirməklə Türkiyə mədəni həyatına vurduqları zərərin fərqində deyildilər. Çünki hazırki fəaliyyətlə müəyyən bir müddət üçün hər hansı teatrın maliyyə probleminin həlli müəmmalı görünsə də, bütövlükdə cəmiyyətin estetik tərəqqisi narahatlıq doğururdu.

Bundan başqa dünənin müəllif əsərləri ilə çağdaş dövrdə yazılanlar arasındakı ideya-bədii səviyyə fərqi, dramaturgiyada Türkiyənin geri düşdüyünün acı sübutu göz qabağında idi. Bəhs etdiyimiz mənzərəyə diqqət yetirsək, bir-iki yeni, gənc oyun yazarından başqa bu sahədə uzun illərdən bəri yaranan boşluğun getdikcə özünü daha çox göstərdiyini aydın görmək olar. Bu isə, nə az, nə çox Türkiyənin teatr sənətinin dil-üslub xüsusiyyətlərini kasıblaşdırır, onun cəmiyyət həyatındakı yerini sıfıra yaxınlaşdırırdı.

Müasir Türkiyə teatrının estetik problemləri icərisində heç şübhəsiz ki, ilk növbədə yerli dramaturgiyanın qıtlığı, həmçinin hazırlanan tamaşaların bədii səhnə təcəssümü səviyyəsinin aşağı olması diqqət çəkir. O da diqqət çəkir ki, mövcud vəziyyətdə yerli müəlliflər yaradıcılıqlarına laqeyd münasibət bəslənməsindən şikayət edir, teatr rejissorları isə ədəbi-bədii baxımdan səviyyəli yerli pyes tapa bilmədiklərini hər fürsətdə dilə gətirirdilər. Bu zaman dövrün əlamətdar və təbii hesab edilən bir prosesi, teatrın bilavasitə yaradıcı heyətində olduğu kimi tamaşaçısı içərisində də nəsil dəyişməsi prosesi baş verirdi. Cılızlaşan estetik tələblər teatrların pyes seçimlərinə təsir göstərdiyi üçün aktyorların oyun tərzi, ifacılıq üslubları da cılızlaşırdı.

**Ədəbiyyat siyahısı:**

1. Şener, S. Cumhuriyetin 75. Yılında Türk Tiyatrosu / S.Şener. – İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 1999. – 331 s.

2. And, M. 60. Sanat Yılında Muhsin Ertuğrula Saygı / M.And. – İstanbul: Çeltüt Basımevi, - 1969. - 130 s.

3. Ertuğrul, M. Gerçeklerin düşleri. Tiyatro düşünceleri / M.Ertuğrul. – İstanbul: Eczacıbaşı Vakfı Yayınları -1993. - 849 s.

4. Yüksel, A. Uzun yolda bir mola – Türkiyede tiyatronun serüveni / A.Yüksel. – İstanbul: Habitus Yayıncılık, – 2019. – 279 s.

**Elchin Gafarli Hajiagha oghlu**

**Aesthetic Problems of the Modern Turkish Theatre**

**Summary:** Our topic covers the problems observed in the life of Turkish theater in the 1970s-1990s. Problems related to repertoire, acting, dramaturgy, theater art and directing in Turkey during this period are reflected in our research. Interestingly, similar problems affect both state and private theaters. Instead of plays that deal with serious social problems, cheap comedies with songs and dances have been given more space.

**Key words:** Turkiye, theater, dramaturgy, actor, aesthetics, problem, audience, Ertughrul, Shakespeare, Istanbul

**Эльчин Гафарлы Гаджиага оглы**

**Эстетические проблемы современного турецкого театра**

**Резюме:** Статья посвящена проблемам, происходившим в театрах Турции в 1970-1990-х годах. В статье исследуются проблемы, связанные с репертуаром, актерским мастерством, драматургией, театральным искусством и режиссурой в Турции этого периода. Примечательно, что схожие проблемы затрагивают как государственные, так и частные театры. Вместо пьес, затрагивающих серьезные социальные проблемы, больше места занимали дешёвые комедии, состоящие из песен и танцев. На развитие этой области повлияли проблемы развития театрального искусства в социально-культурной жизни Турции, удовлетворение эстетических потребностей общества в сценическом искусстве, задержки в создании серьёзной драматургии с идеологической и художественной точки зрения.

**Ключевые слова:** Турция, театр, драматургия, актёр, эстетика, проблема, зритель, Эртугрул, Шекспир, Стамбул.

Məqalənin redaksiyaya daxilolma tarixi: 08.12.2025
Məqalənin çapa qəbul olunma tarixi: 11.12.2025